F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Qız uşaqları parlaq gələcəyin təməli

**11 oktyabr Beynəlxalq Qızlar Günü münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2026**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Qız uşaqları parlaq gələcəyin təməli -** 11 oktyabr Beynəlxalq Qız Uşaqları Günü münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli adına Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz.M; Bakı:  2026. – 29s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**

**E-mail: info@clb.az.**

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Dünya qız uşaqları günü

Qız uşaqları cəmiyyətin gələcəyi, ailənin və milli-mənəvi dəyərlərin daşıyıcısıdır. Onların sağlam, savadlı, vətənpərvər, öz hüquq və vəzifələrini bilən, yaradıcı və fəal şəxsiyyət kimi formalaşması mühüm amillərdəndir. Bu baxımdan qız uşaqlarına diqqətin artırılması, onların təhsil və yaradıcılıq imkanlarının dəstəklənməsi, özünə inam hissinin gücləndirilməsi mühüm tərbiyəvi və sosial məsələlərdəndir. Qız Uşaqları Gününün gündəmə gəlməsi və keçirilməsi qızların hüquqlarına, təhsilinə, təhlükəsizliyinə və gələcək imkanlarına diqqət çəkmək, onların cəmiyyətdə layiqli mövqeyinin formalaşmasına dəstək olmaq baxımından əhəmiyyətli bir təşəbbüsdür. Bu gün münasibətilə kitabxanalarda müxtəlif maarifləndirici və mədəni tədbirlərin təşkili uşaqların dünyagörüşünün genişlənməsinə, mütaliəyə marağının artmasına və milli-mənəvi dəyərlərin aşılanmasına xidmət edir. Hazırlanmış metodik vəsait kitabxana əməkdaşlarına Qız Uşaqları Gününə həsr olunmuş tədbirlərin hazırlanması və keçirilməsində metodik dəstək göstərmək məqsədi daşıyır. Vəsaitdə tədbirin məqsəd və vəzifələri, təşkilati məsələlər, mövzuya uyğun tədbir formaları, kitab sərgisi və guşələrin təşkili, ədəbi-bədii gecə, nağıl saatı, söhbət, müsabiqə və digər tədbirlərin keçirilməsi ilə bağlı tövsiyələr öz əksini tapa bilər. Bu vəsaitin əsas məqsədi qız uşaqlarının mütaliəyə, elmə, yaradıcılığa və özünü inkişafa marağını artırmaq, onların istedad və bacarıqlarının üzə çıxarılmasına şərait yaratmaq, kitabxananı onlar üçün maarifləndirici və yaradıcı bir mədəniyyət məkanına çevirməkdir. Metodik vəsaitdən uşaq kitabxanalarının, məktəb kitabxanalarının və digər kitabxana müəssisələrinin əməkdaşları Qız Uşaqları Gününə həsr olunmuş tədbirlərin hazırlanması zamanı istifadə edə bilərlər.

Beynəlxalq Qızlar Gününün qeyd olunması barədə qətnamənin qəbuluna dair təşəbbüs ilk dəfə BMT Baş Assambleyasında Kanada tərəfindən irəli sürülüb. Qətnamənin qəbulu ilə bağlı prosedurlarla Kanadanın qadın problemləri üzrə naziri Rona Embrouz məşğul olub. 2011-ci ilin dekabr ayının 10-da, BMT Baş Assambleyası Beynəlxalq Qızlar Gününün 2012-ci ilin 11 oktyabr tarixindən başlayaraq qeyd olunması ilə bağlı qətnamənin qəbulunu səsverməyə çıxarıb. Bu günün keçirilməsində əsas məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrıseçkilikdən və baxımsızlıqdan əziyyət çəkən qızlara yönəltməkdir. Eyni zamanda bu bayramın məqsədi diqqəti dünyada qızların zərif cinsin nümayəndələri olması ilə bağlı onların bilavasitə üzləşdikləri sosial problemlərə və qeyri-bərabərlik hallarına cəlb etməkdir. Təhsil almaq, sağlam qidalanmaq, tibbi xidmət imkanı, sosial hüquqlar, habelə uşaq yaşlarında ayrı-seçkilikdən, zorakılıqdan və məcburi evlilikdən müdafiə olunmaq həmin problemlər sırasındadır. Demək olar ki, bir çox ölkələrdə cinsi ayrı-seçkilik, qız uşaqlarının təhsil hüququ və səhiyyə xidmətlərindən məhrum edilməsi, erkən və məcburi nigah problemləri hökm sürür.

Qız uşaqlarına qarşı haqsızlıq əleyhinə təsis edilmiş Beynəlxalq Qız Övladları Günündə hər il BMT-yə üzv dövlətlər, qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif tədbir, aksiya və kampaniyalar keçirilir. Mədəniyyət müəssisəsi olaraq kitabxanada da hər il Beynəlxalq Qız Uşaqları Günündə müxtəlif tədbirlər həyata keçirilir. Bu gün münasibətilə uşaqlarla nağıllarımız əsasında tədbirlər hazırlamaq olar. Çünki, xalq nağılları uşaqların mənəvi dünyasının formalaşmasında mühüm rol oynayan folklor nümunələrindəndir. Uşaqlıq illərinin ən gözəl xatirələri, çox vaxt, axşamlar ana və ya nənənin dizi üstündə dinlədiyimiz nağıllarla bağlı olur. Nağıl uşağın ruhunu oxşayır, dünyanı onun gözündə rəngarəng, maraqlı və bir az da sehirli göstərir. Uşaq nağılları təkcə əyləncə və zaman keçirmə vasitəsi deyil, həm də həyatın ilk dərslərinin, əxlaq və insanlıq nümunələrinin, ailə dəyərlərinin, xeyir və şər anlayışlarının ötürüldüyü, böyük bir məktəbdir. Nağıl uşağı xəyalpərəst, ağıllı və cəsur böyüdür, onun şəxsiyyətinin formalaşmasında əvəzsiz rol oynayır. Adətən nağıllarda yaxşılıq və pislik, mərhəmət və qəddarlıq, zəhmət və tənbəllik, ədalət və haqsızlıq qarşılaşdırılır. Bu əsərlərdə müxtəlif xarakterli qəhrəmanlarla yanaşı, qız obrazlarına da geniş yer verilir. Bu qız qəhrəmanlar nağıllarda öz ağılları, cəsarətləri, sədaqətləri, zəhmətsevərlikləri və xeyirxah davranışları ilə seçilirlər. Onlar bəzən çətin sınaqlardan keçib, haqsızlıqla qarşılaşsalarda, öz yaxşı xüsusiyyətlərini qoruyub saxlayırlar. Bunun üçün də bu obrazlar uşaqlara düzgün davranış nümunəsi göstərir və onların mənəvi-estetik tərbiyəsinə müsbət təsir edir. Əlbəttə nağıllarda qız qəhrəmanlar adətən ağıllı, cəsur, mərhəmətli, səbirli və çətinliklər qarşısında mübarizə aparan obrazlar kimi təqdim olunur. Onlar uşaqlara xeyirxahlıq, zəhmətsevərlik və düzgün qərar vermək kimi keyfiyyətləri aşılayırlar. Sevilən qız qəhrəmanların obrazlarından Göyçək Fatma – Azərbaycan nağıllarının ən tanınmış qız obrazlarından biridir. O, mehriban, zəhmətkeş, səbirli və təmiz qəlbli qız kimi təsvir olunan qəhrəmandır. Ögey anasının haqsız münasibətinə baxmayaraq, yaxşılığından və insanlara hörmətindən dönmür. Nağlda onun obrazında xeyirxahlığın və səbrin sonda qalib gəlməsi göstərilir. “Cırtdan” nağılındakı nənə obrazı da – Azərbaycan nağıllarında yalnız köməkçi personaj kimi deyil, ailəni qoruyan, qayğı göstərən və çətin vəziyyətlərdə düzgün yol göstərən insanlar kimi də təqdim edilir. Belə obrazlar ana məhəbbətini, qayğı və müdrikliyi ifadə edir. “Məlikməmməd” və digər xalq nağıllarındakı qız obrazları da qəhrəmanın qarşısına çıxan, ona məsləhət verən, sınaqlardan keçən və hadisələrin inkişafına təsir edən obrazlardır. Onlar sədaqət, ağıllılıq və iradə xüsusiyyətləri ilə seçilirlər.

**Keçiriləcək tədbirlər:**
**"Nağıllardan gerçək həyata: cəsur qız obrazları və tarixdə iz qoyan qadınlarımız"**

Hər bir uşaq cəmiyyətin gələcəyi, ailənin sevinc və ümid mənbəyidir. Qız uşaqları isə gələcəyin anaları, müəllimləri, həkimləri, alimləri, sənətkarları və müxtəlif peşə sahibləri kimi cəmiyyətin inkişafında mühüm rol oynayırlar. Qız uşaqlarının sağlam, özünəəmin və uğurlu böyüməsi üçün onlara düzgün diqqət və qayğı göstərmək çox vacibdir. Bu qayğı həm emosional, həm də sosial inkişafı əhatə etməlidir. Qız uşaqlarının hüquqlarının qorunması, onların təhsil alması, istedad və bacarıqlarının inkişaf etdirilməsi, özünəinamlı və fəal şəxsiyyət kimi yetişməsi mühüm sosial məsələlərdəndir. Qız uşaqlarına həsr olunmuş tədbirlərin kitabxanalarda keçirilməsi onların dünyagörüşünün genişlənməsinə, mütaliəyə marağının artırılmasına, öz bacarıqlarını nümayiş etdirməsinə və gələcək arzularını ifadə etməsinə şərait yaradır. Bu metodik vəsait kitabxanaçılara Qız Uşaqları Günü münasibətilə tədbirlərin hazırlanması və keçirilməsində metodik kömək məqsədilə hazırlanmışdır. Metodik vəsait əsas giriş hissə ilə başlayıb, girişdə Qız Uşaqları Gününün mahiyyəti, mövzunun aktuallığı və kitabxananın bu istiqamətdə maarifləndirici fəaliyyətinin əhəmiyyəti izah edilir. Vəsaitdə mövzunun aktuallığı**,** qız uşaqlarının təhsil alması, öz hüquqlarını bilməsi, cəmiyyətdə fəal və savadlı şəxs kimi formalaşması, onların istedad və bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanır. Burada əsas məqsədlərdən biri qız uşaqlarının hüquq və imkanları haqqında məlumatlılığını artırmaq, onların təhsilə, mütaliəyə və özünüinkişafa marağını gücləndirməkdir. Bu günün məqsədi qız uşaqlarının hüquqlarının qorunmasına diqqət çəkmək, onların təhsil almaq imkanlarını dəstəkləmək, onlara qarşı zorakılıq və ayrı-seçkiliyin qarşısının alınmasına diqqət yetirmək, qızların cəmiyyətdə fəal və bərabərhüquqlu iştirakını təşviq etməkdir.

"Beynəlxalq Qız Uşaqları Günü" münasibətilə məktəblərdə, mədəniyyət təşkilatlarında da keçirilən "Qəhrəman qadınlar", "Qəhrəman qadınlar – tariximizin şərəf səhifələri", "Qəhrəmanlıq zirvəsində qadın adı", "Vətən yolunda fədakar qadınlar", "Qadın – zəriflik və qəhrəmanlıq rəmzi", "Qəhrəman qadınlarımızla qürur duyuruq!","Vətən sevgisi ilə ucalan qadınlar", "Qəhrəman qadınlar – Vətənə həsr olunmuş ömürlər", "Tarix yazan qadınlar", "Qadın zərifliyi, igidlik qüdrəti", "Azərbaycanın qəhrəman qadınları", "Nəsillərə örnək Qəhrəman qadınlar " və b. adlı tədbirlər gənc qızlara ilham vermək, və cəmiyyətdə güclü rol oynamış tarixi, müasir Azərbaycan qadınlarının həyatını tanıtmaq məqsədi daşıyır. Uşaq kitabxanası olaraq Firidun bəy Köçərli adında Respublika Uşaq kitabxanasında da bu mövzuda xüsusi ilə təbliğat işi olaraq müxtəlif maraqlı tədbirlər həyata keçirilir. Belə tədbirlərdən **"Qız uşaqları – gələcəyin işıqlı sabahı"** adlı söhbət, müzakirə, konfrans, kimi tədbirlər, kitab sərgisi ətrafında söhbət təşkil edlir.

Qız uşaqlarının sağlam, savadlı, azad və təhlükəsiz mühitdə böyüməsi cəmiyyətin gələcəyi baxımından mühüm əhəmiyyət daşıyır. Hər il 11 oktyabrda qeyd olunan bu gün qız uşaqlarının hüquqlarına, təhsil imkanlarına, onların müdafiəsinə və cəmiyyətdə fəal iştirakına diqqətin artırılmasına xidmət edir. Kitabxanamızda bu istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsi kitab və mütaliə vasitəsilə uşaqlarda özünəinam, humanizm, ədalət, dostluq, qarşılıqlı hörmət və məsuliyyət kimi keyfiyyətlərin formalaşdırılmasına kömək edir. Hazırlanan tədbirin məqsədi qız uşaqlarının cəmiyyətdəki roluna diqqət çəkmək, onların təhsil və mütaliəyə marağını artırmaq, hüquqları və imkanları barədə maarifləndirici məlumat vermək, istedad və bacarıqlarının inkişafına dəstək olmaqdır. Tədbirlər əsasən məktəbyaşlı qızlar, yeniyetmələr, valideynlər, müəllimlər, kitabxana oxucuları üçün nəzərdə tutulur. Qız Uşaqları Günü münasibətilə kitabxanada onlayn və ənənəvi kitab sərgisi formaları, ədəbi-bədii gecə, söhbət və müzakirə, dəyirmi masa, kitab sərgisi, veb-sərgi, intellektual oyun, rəsm müsabiqəsi, esse müsabiqəsi, şeir və mahnı proqramı, təşkili maraqlı olar. "Qız uşaqları – gələcəyin işıqlı sabahı" adlı kitab sərgisi təşkilni bir neçə bölmədən ibarət edə bilərik

**Sərginin bölmələri:**
I - *"Qadın obrazları ədəbiyyatımızda"*adlı bölmədə Azərbaycan ədəbiyyatında qadın və qız obrazlarının əks olunduğu əsərlər yerləşdiririk.

II – *"Uğur qazanan qadınlar"* adlı bölmədə Elm, təhsil, mədəniyyət, ədəbiyyat və digər sahələrdə uğur qazanmış qadınlar haqqında ədəbiyyatlar düzülür.

III – *"Mənim gələcəyim"* bu bölmədə isə uşaqlar üçün peşələr, elm, təhsil və şəxsi inkişaf haqqında maraqlı olan kitablar yığılır.

Qeyd etdiyimiz 1-ci bölmənin nümayişini hazırlamaq üçün aşağıdakı ədəbiyyatları seçə bilərik:
Xalq ədəbiyyatımızdan olan *"Kitabi-Dədə Qorquddan"* igid, sədaqətli və mərd qadın kimi, döyüşkən, cəsur və fəal qadın olan *"Burla xatun" obrazı, "Banıçiçək"* obrazı, *Gözəl, Selcan xatun obrazlarını, "Xurşidbanu Natəvan"*zəriflik və mənəvi saflıq nümunəsi kimi, Nizami Gəncəvinin *"Xosrov və Şirin"* poemasında *"Şirin"* obrazı iradəli, ağıllı, sədaqətli və müstəqil bir qadın *"Sirlər xəzinəsi"*də Fitnə ağıllı, hazırcavab və cəsarətli bir qadın, *"İsgəndərnamə"də "Nüşabə"* ağıllı, hökmdar, cəsur və uzaqgörən qadın kimi, Məhsəti Gəncəvi obrazı ədəbi əsərlərdə müxtəlif müəlliflər tərəfindən sənətə bağlı, azad ruhlu bir qadın, Nəcəf bəy Vəzirovun *"Nadanlıq"* əsərində *"Gülbahar"*obrazı maarifçilik və ailə dəyərlərini qoruyan bir qadın, Əbdürrəhim bəy Haqverdiyevin *"Pəri cadu"*əsərində Pəri obrazını mürəkkəb və faciəvi qadın obrazı kimi, Cəfər Cabbarlının *"Almaz"əsərində "Almaz"*azad düşüncəli, mübariz, maarifçi qadın kimi, "Sevil"əsərində "Sevil"

Qadın azadlığının simvolu kimi, İsmayıl Şıxlının *"Dəli Kür"* əsərində Səriyyə ailə və mənəvi dəyərlərə bağlı qadın obrazı kimi təqdim edə bilərik.



















**[https://drive.google.com/file/d/15Xw64_AA-Cv4RGuLG5DEDJ2r5GfQOjGW/view](https://drive.google.com/file/d/15Xw64_AA-Cv4RGuLG5DEDJ2r5GfQOjGW/view)**

**[https://drive.google.com/file/d/1TdFO7TE-KQKhqFvcz5upUzwwafhzc436/view](https://drive.google.com/file/d/1TdFO7TE-KQKhqFvcz5upUzwwafhzc436/view)**

Qız uşaqlarından bəhs edən  haqqında tədbirlərdə, kitabxana guşələrində və metodik vəsaitlərdə istifadə edə biləcəyimiz gözəl fikirləri təqdim edirik:

• *Qız uşağı ailənin sevinc, ümid və gələcəyə açılan işıqlı qapısıdır.*

• *Hər qız uşağı böyük arzulara və parlaq gələcəyə layiqdir.*

• *Qızların təhsili cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli sərmayələrdəndir.*

• *Qız uşağının gülüşü evə sevinc, ürəklərə istilik gətirir.*

• *Qız uşaqlarına verilən sevgi və təhsil onların özünəinamını gücləndirir.*

• *Hər qızın arzusu dinlənilməli, fikrinə hörmət edilməlidir.*

• *Qız uşağı yalnız bu günün deyil, sabahın da qurucusudur.*

• *Oxuyan, öyrənən və özünə inanan qız gələcəyin güclü qadınıdır.*

• *Qızlara göstərilən qayğı sağlam və xoşbəxt gələcəyin təməlidir.*

• *Qız uşaqlarının hüquqlarına hörmət etmək onların gələcəyinə hörmət etməkdir.*

• *Hər qız uşağının dünyanı dəyişdirə biləcək bir arzusu var.*

• *Qızlarımızın təbəssümü gələcəyimizin işığıdır.*

• *"Qız övladı cənnət qapılarını açan açardır." (Hədis məzmunlu hikmət)"*

• *Bir qız uşağını xoşbəxt etmək – gələcəyin xoşbəxt cəmiyyətini qurmaq deməkdir."*
• *"Atanın ilk sevgisi, ananın sirdaşı qızlarıdır."*

• *" Qız uşağı evə qədəm qoyanda o evə ruzi və bərəkət gələr."*

**Kitabi Dədə Qorqudda**

Kitabi Dədə Qorqudda qadın obrazları: "Kitabi-Dədə Qorqud"da qadınlar əsasən cəsur və mərd, ağıllı və uzaqgörən, ailəyə və övlada bağlı, vətən və el sevgisi ilə yaşayan, çətinlik qarşısında sınmayan obrazlar kimi təqdim edilir. Bu baxımdan Burla xatun, Banu Çiçək, Dirsə xanın xatunu və Selcan xatun Azərbaycan ədəbiyyatında qadının gücünü, mərdliyini və mənəvi ucalığını göstərən qədim obrazlardır. Dastanda qadınlar yalnız ailə daxilində deyil, həm də igid, ağıllı, cəsur və qərar qəbul edən şəxsiyyətlər kimi təqdim olunur. Əsərdə qadın obrazları cəmiyyətin sütunu, ailənin qoruyucusu, sədaqətli ömür-gün yoldaşı və yeri gəldikdə igid döyüşçü kimi təsvir olunur. Türk epik ənənəsinə uyğun olaraq, eposda qadına olduqca yüksək hörmət və ehtiram bəslənilir, ana haqqı isə "Tanrı haqqı" ilə bərabər tutulur. Kitabxanada 11 oktyabr Beynəlxalq Qızlar Günü ərəfəsində *"Dədə Qorqudun Cəsur Qadınları"*adlı layihə təşkil edə bilərik. Layihədə məqsəd uşaqlara Kitabi-Dədə Qorqud dastanındakı qadın obrazlarının (Banu Çiçək, Burla Xatun, Selcan Xatun) cəsarətini, vətənpərvərliyini və ailəyə sadiqliyini aşılamaqdır.
Dastandakı əsas qadın obrazları, onların daşıdığı missiyalar və xarakterik xüsusiyyətlər haqqında uşaqlara məlumat verilir. Boy boyunca qorunan Baş Qadın obrazları boyu Uzun Burla Xatun - Qazan xanın xanımı və Oğuz elinin mənəvi anasıdır. O, həm fədakar bir ana, həm də ərinə son dərəcə sadiq bir həyat yoldaşıdır. Namusunu qorumaq üçün hər cür fədakarlığa hazırdır. Lazım gəldikdə əlinə qılınc

alıb döyüş meydanına atılır və düşmənə qarşı qəhrəmanlıqla vuruşmağı bacarır. Banuçiçək isə  Beyrəyin nişanlısıdır. Oğuz cəmiyyətində qadının azad və bərabərhüquqlu olmasının ən bariz nümunəsidir. Evlənəcəyi kişinin ən azı özü qədər güclü olmasını istəyir. O, Beyrəklə at çapır, ox atır və güləşir. Sədaqəti və mübarizliyi ilə seçilir. Selcan Xatun obrazı isə  Qanturalın həyat yoldaşıdır. Aktiv döyüşçü qadın xarakterinin ən parlaq nümunəsidir. Qanturalı düşmən qarşısında çətinliyə düşəndə Selcan Xatun qılınc qaldırıb döyüşə girir və ərini ölümdən xilas edir. Qoçaqlığı, cəsarəti və strateji zəkası ilə ön plandadır. Burla Xatunun anası və digər ana obrazları dastanda övladlarına düzgün tərbiyə verən, onları vətənə və elə xeyirli böyüdən müqəddəs varlıqlar kimi təqdim olunur. Onların duaları övladları üçün ən böyük sipər hesab edilir. Oğuz Qadınının ümumi xüsusiyyətləri olaraq dastanda qadınların fiziki və mənəvi gücü sadəcə ev işləri ilə məhdudlaşmır, həm də fiziki cəhətdən güclü və cəsur olmalarıdır. Sədaqət və namusları isə ərlərinə və ellərinə olan bağlılıqları, namus hissinin  hər şeydən uca tutmalarıdır. Məsləhətçi və fəal iştirakçı olaraq bu qadınlar ictimai-siyasi hadisələrdə, ailə daxili və el daxili qərarların verilməsində söz sahibidirlər. Döyüşkənliklərinə gəldikdə isə  Kişilərlə çiyin-çiyinə vuruşmaq, at minmək və ox atmaq onlar üçün adi bir haldır.

**Konfrans**

Kitabxanada və mədəniyyət müəssisələrində "Kitabi-Dədə Qorqud"da qadın obrazları mövzusunda konfrans keçirə bilərik. Konfransda Burla xatun, Banıçiçək, Selcan xatun kimi qadın obrazlarının xarakteri, ailədə və cəmiyyətdə rolu, cəsarəti və vətənpərvərliyi haqqında məruzələr təqdim edirik.
Konfrans üçün məruzə mövzusu kimi  ağıdakılardan birini təqdim edə bilərik.

✓ "Kitabi-Dədə Qorqud"da qadın və ailə dəyərləri
✓  Burla xatun – Azərbaycan qadınının mərdlik simvolu
✓ Banıçiçək obrazında qadın zəkası və sədaqəti
✓ Selcan xatun – döyüşkən və cəsur qadın obrazı
✓ Dədə Qorqud dastanında ana obrazının yeri
✓ Oğuz cəmiyyətində qadının sosial mövqeyi
✓ "Kitabi-Dədə Qorqud" qadın obrazlarının müasir gəncliyə nümunə olması

"Kitabi-Dədə Qorqud"da qadın obrazları mövzusunda kitabxanada keçiriləcək konfrans üçün "Kitabi-Dədə Qorqud" dastanında qadın obrazları – milli-mənəvi dəyərlərimizin aynası başlığı seçə bilərik. Konfransın məqsədi "Kitabi-Dədə Qorqud" dastanında qadının mövqeyini və rolunu araşdırmaq, qadın obrazlarının cəsarət, sədaqət, müdriklik və vətənpərvərlik kimi xüsusiyyətlərini təbliğ etmək, gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığını gücləndirmək, dastanın öyrənilməsinə və mütaliəsinə maraq yaratmaqdır. Konfransda müzakirə olunacaq əsas qadın obrazları olaraq Oğuz qadınının ləyaqətini, mərdliyini, ailəsinə və elinə sədaqətini

təcəssüm etdirən, yalnız ana və həyat yoldaşı deyil, həm də çətin məqamlarda iradə və cəsarət göstərən güclü şəxsiyyət olan Burla xatun, gözəlliyi ilə yanaşı, igidliyi, ağıllılığı və müstəqil xarakteri ilə seçilən Beyrəyin layiqli sevgilisi və gələcək həyat yoldaşı kimi təqdim olunan Banıçiçəyi seçə bilərik. Sonda oxuculara verilən viktorina sualları isə daha maraqlı olar

**Kitabxana viktorinası**

Kitabxanada viktorinaların hazırlanmasının əsas məqsədi oxucuların və iştirakçıların biliklərini yoxlamaq, mövzuya marağını artırmaq və öyrənilən məlumatları daha yaxşı mənimsəməsinə kömək etməkdir. “Kitabi-Dədə Qorqudda qadın obrazları” mövzusunda viktorinanın təşkilinin məqsədi şagirdlərin dastan haqqında biliklərini artırmaq, qadın obrazlarının xarakterik xüsusiyyətlərini onlara tanıtmaqdır.

**1.** “Kitabi-Dədə Qorqud” hansı xalqın qədim ədəbi abidəsidir?
A) Azərbaycan xalqının
B) Oğuz-türk xalqının
C) Hind xalqının
*Cavab: B*

**2.** Burla xatun kimin həyat yoldaşıdır?
A) Qanturalının
B) Salur Qazanın
C) Bamsı Beyrəyin
*Cavab: B*

**3.** Burla xatun kimin anasıdır?
A) Uruzun
B) Buğacın
C) Qanturalının
*Cavab: C*

**4.** Banu Çiçək kimin sevdiyi qızdır?
A) Bamsı Beyrəyin
B) Qanturalının
C) Dəli Domrulun
*Cavab: A*

**5.** Banu Çiçəyi fərqləndirən əsas xüsusiyyətlər hansılardır?
A) Cəsarəti və çevikliyi

B) Yalnız gözəlliyi
C) Sakitliyi
*Cavab: A*

**6.** Dirsə xanın xatunu hansı obrazın anasıdır?
A) Buğacın
B) Uruzun
C) Beyrəyin
*Cavab: A*

**7.** Selcan xatun kimin sevdiyi qızdır?
A) Qanturalının
B) Uruzun
C) Beyrəyin
*Cavab: A*

**8.** Dastanda qadınlar necə təqdim olunur?
A) Yalnız evdar qadın kimi
B) Cəsur, ağıllı, mərd və sədaqətli
C) Hadisələrdə iştirak etməyən obrazlar kimi
*Cavab: B*

**9.** Hansı qadın obrazı Salur Qazanın həyat yoldaşıdır?
*Cavab: Burla xatun.*

**10.** Hansı qadın obrazı Bamsı Beyrəklə igidlik sınaqlarında yarışır?
*Cavab: Banu Çiçək.*

**Kitabxanada kiçikyaşlı uşaqlarla səhnəcik:**
**"Balaca qızın böyük arzusu" Qız Uşaqları Gününə həsr olunmuş səhnəcik təşkil edə bilərik:**
*Səhnədə stol, stul, bir neçə kitab və güllər qoyulur. Arxa fonda: "Qız uşaqları – gələcəyin işığıdır!"*
**Aparıcı:** Əziz balacalar! Hər bir qız uşağının bir arzusu, bir xəyalı var. Onlara oxumaq, öyrənmək, öz istedadlarını inkişaf etdirmək üçün şərait yaratmaq bizim ən gözəl vəzifələrimizdəndir.
"Qız uşaqları gülərsə, ailə sevinər.
Qız uşaqları oxuyarsa, gələcək işıqlanar."
Hamı birlikdə: "Qız uşaqları – işıqlı gələcəyimizdir!"

Gəlin balaca oxucularımızın ifasında *“Mənim gələcək arzularım” çıxışı*na tamaşa edək.

İştirakçılar növbə ilə səhnəyə çıxaraq deyirlər:

“Mən gələcəkdə həkim olmaq istəyirəm.”

“Mən gələcəkdə müəllim olmaq istəyirəm.”

“Mən gələcəkdə yazıçı olmaq istəyirəm.”

“Mən gələcəkdə alim olmaq istəyirəm.”

“Mən gələcəkdə uşaqlara kitab oxumağı sevdirən kitabxanaçı olmaq istəyirəm.”

Səhnənin tərtibatı qurulur, səhnədə stol, stul, bir neçə kitab və güllər qoyulur. Arxa fonda:
“Qız uşaqları – gələcəyin işığıdır!” yazısı yerləşdirilir.

**Aparıcı:** Böyük arzular böyük zəhmət tələb edir. Kitab isə bu yolda sizin ən etibarlı yol yoldaşınız ola bilər. Bir var idi, bir yox idi, Aysu adlı balaca, ağıllı və mehriban bir qız var idi. Aysunun çoxlu arzuları vardı. Amma o, hansı arzunun arxasınca gedəcəyini bilmirdi.
*Aysu səhnəyə daxil olur, əlində kitab olur*.
**Aysu:** Mən böyüyəndə görəsən kim olacağam? Həkim? Müəllim? Rəssam? Bəlkə yazıçı?
**Nənə:** Ay mənim ağıllı balam, nə olmaq istəyirsənsə, əvvəlcə oxu, öyrən və çalış.
**Aysu:** Bəs arzuma necə çata bilərəm, nənə?
**Nənə:** Kitab oxu, balam. Kitab sənə çoxlu yollar göstərəcək.
*Kitab canlanır. Kitab əlində olan uşaq irəli çıxır.*
**Kitab:** Salam, Aysu!
**Aysu:** Aaa! Sən danışırsan?!
**Kitab:** Bəli! Mən sənin kitab dostunam. Məni oxusan, çoxlu yeni şeylər öyrənəcəksən.
**Aysu:** Mən kitab oxumağı sevirəm. Bəs sən mənə arzuma çatmağa kömək edə bilərsən?
**Kitab:** Əlbəttə! Mən sənə bilik verərəm, sən isə çalışarsan.
*Arzu səhnəyə daxil olur*
**Arzu:** Mən Arzuyam! Mən hər qız uşağının ürəyində yaşayıram.
**Aysu:** Sən mənim arzumsan?

**Arzu:** Bəli. Amma məni gerçəkləşdirmək üçün sən çalışmalısan.
**Aysu:** Mən çalışacağam!
**Arzu:** Oxuyacaqsan?
**Aysu:** Bəli!
**Arzu:** Kitablarını qoruyacaqsan?
**Aysu:** Bəli!
**Arzu:** Dostlarına kömək edəcəksən?
**Aysu:** Əlbəttə!
*Dost qız səhnəyə daxil olur*
**Dost qız:** Aysu, gəl oynayaq!
**Aysu:** Əlbəttə, oynayaq. Amma əvvəlcə kitabımızı oxuyaq.
**Dost qız:** Mən də kitab oxumağı sevirəm!
**Kitab:** Onda gəlin birlikdə oxuyaq!
**Şeir**
**I qız:**
Qız uşağı çiçəkdir,
Gülüşündə nur vardır.
Onun şirin arzusu,
Gözlərində yol vardır.
**II qız:**
Kitab oxu, bilik qazan,
Arzuların böyük olsun.
Çalış, öyrən, heç dayanma,
Gələcəyin işıq olsun.
**Aparıcı:** Qız uşağı ailənin sevincidir, cəmiyyətin gələcəyidir. Onların arzularını dinləmək, təhsil almasına və öz istedadlarını inkişaf etdirməsinə dəstək olmaq çox vacibdir.
Əziz qızlar, unutmayın:
Oxuyun, öyrənin, xəyal qurun və arzularınızdan heç vaxt vaz keçməyin!
Bütün uşaqlar birlikdə:
“Qız uşaqları – işıqlı gələcəyimizdir!”
**Aparıcı:** Qız Uşaqları Gününüz mübarək, əziz balacalar!
**Aparıcı:** “Qız uşaqlarına sevgi verək, onları təhsilə həvəsləndirək, arzularına qanad verək. Çünki bu günün qızları sabahın savadlı, güclü və mərhəmətli qadınlarıdır.”
**Aparıcı:** *“Nağıllarımızın qız qəhrəmanları”*adlı uşaqlar üçün həm əyləncəli, həm də tərbiyəvi baxımdan daha maraqlı tədbirlər hazırlaya bilərik. Nağıllar uşaqların dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.Müxtəlif xüsusiyyətləri ilə seçilən nağıllardakı qız obrazları ağıllı, mərd, səbirli olurlar. Tədbirləri müxtəlif formalarda hazırlaya bilərik.
*“Kitab oxuyan qız – işıqlı gələcək”*
*Qız uşaqları üçün maraqlı kitabların təqdimatı və mütaliə saatı.*

*“Nağılların cəsur qızları”*
*Azərbaycan və dünya nağıllarından ağıllı, cəsur və mərd qız obrazlarının təqdimatı.*
*“Qadınlarımızdan öyrənək”*
*Mehriban Əliyeva, Hökümə Əliyeva, Sara Aşurbəyli, Şəfiqə Axundova və digər tanınmış Azərbaycan qadınları haqqında qısa təqdimatlar.*
*“Mən gələcəkdə kim olacağam?”*
*Qızların gələcək arzuları və peşələri haqqında söhbət.*
*“Qızlar məktəbi” səhnəciyi*
*Aparıcı “Qızlar məktəbinin” müəllimi rolunda çıxış edir və şagirdlərə “Kitab”, “Təhsil”, “Cəsarət”, “Xeyirxahlıq”, “Arzu” kimi simvolik dərslər keçir.*
*“Mənim arzum”adlı arzu ağacı”* hər bir qız öz arzusunu kağıza yazaraq “Arzu ağacı”na yerləşdirir.
**“Nağıllarımızın cəsur qızları” adlı nağıl saatı:**
Kitabxanada hazırlanan nağıl saatı uşaqlara canlı və ya audiovizual formatda nağılların oxunduğu və ya səsləndirildiyi xüsusi maarifləndirici və əyləncəli fəaliyyətdir. Bu tədbirlər adətən kitabxanalarda, məktəblərdə, bağçalarda və ya media platformalarında balacaların kitaba marağını artırmaq məqsədilə təşkil olunur. Kitabxanada nağıl saatının keçirilməsinin əsas məqsədi uşaqlarda erkən yaşlardan kitaba və oxumağa sevgi yaratmaq, mütaliə vərdişi, nitq inkişafını dinləmə bacarıqlarını və lüğət ehtiyatını zənginləşdirmək, uşaqların təsəvvür qabiliyyətini və yaradıcı düşüncəsini gücləndirmək, yaxşı ilə pisi ayırmağı, düzgün qərarlar verməyi öyrətməkdir. 11 Oktyabr Beynəlxalq Qızlar Günü münasibətilə hazırlanmış nağıl saatının mövzusunu nağıllarda cəsur, ağıllı və mərd qız obrazları ilə bağlı edə bilərik. Kiçik yaşlı uşaqlar üçün 30–40 dəqiqə hazırlanmış tədbirin məqsədi uşaqlarda nağıllara və mütaliəyə maraq yaratmaq, onlarda cəsarət, mərdlik, xeyirxahlıq, dostluq və ədalət kimi müsbət keyfiyyətləri təbliğ etməkdir. Tədbiri kitabxanaçı giriş sözü ilə açır.
Əziz uşaqlar!
Bu gün biz sehrli və maraqlı bir aləmə – nağıllar aləminə səyahət edəcəyik. Nağıllarda müxtəlif qəhrəmanlarla qarşılaşılaşacağıq. Onların arasında ağıllı, mərd, cəsur və xeyirxah qızlar da var. Bəzən bu qızlar çətinliklərlə üzləşir, lakin qorxmurlar. Onlar öz ağılları, cəsarətləri və yaxşı ürəkləri ilə çətinliklərin öhdəsindən gəlirlər. Gəlin nağıllarımızın və dünya nağıllarının cəsur qızlarını birlikdə tanıyaq! Ilk nağıl qəhrəmanımız “Göyçək Fatma”
Kitabxanaçı uşaqlara “Göyçək Fatma” nağılından danışdıqdan sonra balaca oxucularla sual- cavab təşkil edir:
– Fatma hansı xüsusiyyətləri ilə seçilirdi?
– O, çətinliklər qarşısında necə davranırdı?
– Sizcə, yaxşı insan olmaq nə deməkdir?
İkinci nağılımız isə  “Cəsur qız” nağılının qəhrəmanıdır.

Nağılda uşaqlara cəsarətli qız obrazının müxtəlif çətinliklərdən, qorxmaması və ağıllı qərarlar verməsi haqqında danışılır. “Cəsarətli olmaq heç vaxt qorxmamaq deyil. Cəsarətli insan qorxsa belə, doğru olanı etməyə çalışır.”

Üçüncü nağılımız olan “Zoluşka” nağılında isə uşaqlara Zoluşkanın mehribanlığı, səbirli olması və bütün çətinliklərə baxmayaraq ümidini itirməməsi haqqında məlumat verilir. Kitabxanaçı nağılı bitirdikdən sonra sual-cavab edir.

Zoluşka necə qız idi?

O, niyə uşaqlar tərəfindən sevilir?

Siz Zoluşkanın yerində olsaydınız, nə edərdiniz?

Növbəti nağılımız isə “Qırmızı papaq” adlanır. Kitabxanaçı nağıldan uyğun hissəni oxuduqdan sonra uşaqlarla qəhrəman barədə söhbət aparır, sual-cavab edir.

Sual:

– Qırmızı papaq hansı səhvi etmişdi?

– Nağıldan hansı nəticəni çıxarmaq olar?

Digər maraqlı viktorinada isə kitabxanaçı qəhrəman haqqında uşaqlara qısa məlumat verir, uşaqlar isə onun adını tapırlar.

Məsələn: “Bu qız nağılda çox mehriban idi. Ögey anası və bacıları ona pis münasibət göstərirdilər. Sehrli kömək sayəsində həyatında gözəl dəyişiklik baş verdi.” Bu hansı nağıl qəhrəmanıdır?

Cavab: Zoluşka.

-“Bu nağıldakı qız isə nənəsinin yanına gedirdi və başına maraqlı hadisələr gəldi.”

-Cavab: Qırmızı papaq.

“Sən nağıl qəhrəmanı olsaydın, hansı xüsusiyyətinlə seçilərdin?” Uşaqlar öz fikirlərini söyləyirlər.















https://drive.google.com/file/d/1fMohoTG9zLhvItnGhnOkOqvsHA1xLxOD/view?pli=1
https://drive.google.com/file/d/1TdFO7TE-KQKhqFvcz5upUzwwafhzc436/view
https://drive.google.com/file/d/1gmLv68jYOXG6oXh4T5D-TBrDfAwc-dWk/view




**Dünya nağıllarında qız qəhrəmanlar**

Dünya folklorunda uşaq nağıllarının ilk yazılı nümunələrinə qədim Şərq (Misir, Hindistan, Çin, İran) və Qərb (Avropa, Yunanıstan, Roma) mədəniyyətlərində rast gəlindiyi məlumdur. Avropada Şarl Perro, Qrimm qardaşları, Hans Xristian Andersen kimi klassik nağıl müəllifləri bu ənənəni daha da zənginləşdirdilər. Zoluşka nağıl qəhrəmanı kimi – ağır həyat şəraitinə baxmayaraq, dünya ədəbiyyatında xeyirxahlığını və ümidini itirməyən qız obrazıdır. Onun hekayəsində səbir, təmizlik və yaxşılığın mükafatlandırılması əsas ideyalardandır. Dünya folklorunda Qırmızı papaq isə – uşaqlara diqqətli və ehtiyatlı olmağı öyrədən obrazdır. Onun yaşadığı hadisələr vasitəsilə uşaqlara tanımadığı şəxslərlə ehtiyatlı davranmaq və böyüklərin məsləhətinə qulaq asmaq fikri aşılanır.

*Qar qız obrazı* - Qar kimi ağ – gözəlliyi ilə yanaşı, mehribanlığı və təmiz qəlbi ilə seçilən qız obrazıdır. Onun nağılında xeyirlə şərin mübarizəsi əsas mövzulardan biridir. Ümumiyyətlə nağıllardakı qız qəhrəmanlar uşaqlar üçün yalnız gözəl obrazlar deyil, həm də mənəvi keyfiyyətlərin daşıyıcılarıdır. Onların timsalında uşaqlar öyrənirlər ki, ağıllı olmaq, yaxşılıq etmək, çətinlikdən qorxmamaq, səbirli və mərhəmətli olmaq insanı uğura aparan əsas xüsusiyyətlərdəndir.

**Rəsm müsabiqəsi: Rənglərdə – mənim sevimli nağıl qız qəhrəmanım"**

Kitabxanada müsabiqənin mövzusu haqqında kitabxananın sosial şəbəkələri, facebook, instaqram və digər sosial şəbəkələrində müsabiqənin tarixi, keçirilməsi haqqında məlumat yerləşdirilir. Elanda uşaqlara sevdikləri nağıl qəhrəmanını seçmək təklif olunur. İştirakçılar seçdikləri qəhrəmanın obrazını çəkirlər. Rəsmlər sərgi üçün nümayiş etdirilir. Hər uşaq çəkdiyi qəhrəman haqqında qısa məlumat verir. Münsiflər rəsmləri mövzuya uyğunluq, yaradıcılıq, rənglərin istifadəsi və təqdimat baxımından qiymətləndirirlər. Qaliblər diplom və kiçik hədiyyələrlə təltif olunurlar.

**Kitabxanaçı:**
Əziz uşaqlar, bu gün biz nağılların cəsur qızları ilə tanış olduq. Onların hər biri bizə yaxşılıq etmək, dostlara kömək etmək, çətinliklərdən qorxmamaq, ağıllı və mərhəmətli olmaq və s. kimi xüsusiyyətləri təbliğ etdi. "Göyçək Fatma" səbirli, xeyirxah, zəhmətkeş,Gülgəz gözəl, ağıllı, sədaqətli xanım, Pəri qızı sirli, mərd, fövqəltəbii gücə malikolan bir qadın, "Tıq-tıq xanım" cəld, ağıllı və mübariz , Üç bacı nağıl obrazı birlik, sədaqət və ailəyə bağlılıq, "Şahzadə qız"müxtəlif xalq nağıllarında cəsur, ağıllı, iradəli obraz kimi, "Su pərisi" Azərbaycan və Şərq folklorunda sirli, gözəl, azad ruhlu bir obraz kimi maraqlıdır. Unutmayaq ki, hər birinizin daxilində kiçik bir nağıl qəhrəmanı yaşayır. Onu böyüdən isə yaxşılıq, cəsarət və kitab oxumaqdır!
**Oxucularla söhbət:**



Qızlar Gününə aid kitabxanada "Savadlı qız – güclü ailə, güclü cəmiyyət, işıqlı gələcək!" formatında çox maraqlı və tərbiyəvi söhbət təşkil edə bilərik. Burada tədbirin məqsədi qız uşaqlarının özünəinamını, mütaliəyə marağını, yaradıcılığını və milli-mənəvi dəyərlərə bağlılığını inkişaf etdirməkdir. Söhbəti Hacı Zeynalabdin Tağıyevin açdığı Qızlar məktəbi mövzusunda təşkil edə bilərik. Məktəb 1901-ci il oktyabrın 7-də böyük xeyriyyəçi Zeynalabdin Tağıyevin təşəbbüsü və bir neçə il davam edən səyləri nəticəsində Bakıda müsəlman Şərqində açılan ilk dünyəvi qızlar məktəbi olmuşdur. "Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir" deyən H.Z.Tağıyevin min-bir əziyyət bahasına açdırdığı qızlar məktəbi 20-ci əsr müsəlman Şərq təhsil tarixində çevrilişə səbəb olmuşdur. Bakıda qızlar məktəbi açmaq istəyən Hacı Zeynalabdin Tağıyev əvvəlcə İmperator III Aleksandrdan icazə istəsə də, cavab müsbət olmamışdır. Çar II Nikolay taxta çıxanda Hacı yenidən buna cəhd edir və 1895-ci ildə Nikolayın tacqoyma mərasimində Zaqafqaziya müsəlmanlarını təmsil edən Hacı Zeynalabdin Tağıyev çarın xanımı Aleksandra Fyodorovnanın adını daşıyan bir qız məktəbinin açılmasını xahiş edir. 1896-cı ildə şifahi, 2 il sonra isə rəsmi razılıq alan H.Z.Tağıyev ilk növbədə məktəb binası üçün müvafiq yerin seçilməsinə və inşasına diqqət yetirirdi. Tağıyevin səylərinə baxmayaraq Rusiya imperator idarələrinin süründürməçiliyi ilə məsələnin həlli süni surətdə yubadılsada nəticədə məktəb binasının yerinin müəyyən edilməsinə və tikintisinə 4 il vaxt sərf olunur. Nəhayət müsəlman qızlar məktəbi Bakıda "İsmailiyyə" binasının yanında tikilir. Daha sonra bu binada Azərbaycan Xalq Cumhüriyyətinin parlamenti yerləşmişdir. Hazırda isə burada Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu fəaliyyət göstərir. "Tağıyevin məktəbi" kimi tanınan bu təhsil ocağı ilk qığılcım kimi cəmiyyətimizin maarif və təhsil sahəsində canlanma yaradır. Bu məktəbin məzunları daha sonra Azərbaycan xalqının həyatında böyük rol oynayıb, onun maarifçiliyinə

töhfə vermişdilər. Qızlar məktəbini bitirən Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova, Bakıda "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova, Züleyxa xanım Vəliyeva və onlarla qız sonradan Azərbaycanın tərəqqisində yaxından iştirak edir, Cümhuriyyət fəallarından olurlar. Bir neçə il sonra Bakıda artıq qız məktəblərinin sayı artdığından Qızlar məktəbi Müəllimlər seminariyası kimi fəaliyyət göstərməyə başlamışdır. Məktəbin məzunları hətta burada dərs deməyə başlamışdılar. Artıq ilk illərdə qızların oxumasına, məktəbə getməsinə qarşı çıxan ailələr artıq buna normal yanaşırdı. Hətta cəmiyyətdə qızların təhsilinə maraq yaranmışdı. "Qadın gülərsə şu issız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək!" deyirdi Hüseyin Cavid. Hətta




"Azərbaycan" adını öndə gedən ölkələr sırasında görmək üçün əlindən gələni əsirgəməyən, millətimizin inkişafı yolunda canını qoyan fədailərimiz az deyildi. Bu işıqlı yolun davamı kimi günümüzdə oğlan və qızlarımız bərabər imkanlar daxilində təhsil alır və dövlətimizin, cəmiyyətimizin inkişafına töhfələr verirdilər. Ölkə başçısı cənab İlham Əliyevin, eyni zamanda Birinci-vitse prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təhsilə diqqəti və qayğısı sayəsində yüksək standartlara cavab verən yeni məktəblərin açılması, uşaqların təhsil şəraitinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir, uşaqların və gənclərin intellektual vətəndaşlar kimi yetişməsi üçün müxtəlif layihələr, müsabiqələr keçirilir, onların xaricdə təhsil almaq və uğurlu karyera qurmaq imkanları genişləndirilir. Azərbaycanın bütövlüyünə qovuşduğu bir zamanda işğaldan azad olunan torpaqlarımızda da yeni təhsil ocaqlarının açılması istiqamətində layihələr hazırlanır. Qızlarımızın təhsil alması, cəmiyyətdə gender bərabərliyinin, qadınların iqtisadi iştirakçılığının təmin olunması və ölkənin bütün sahələlərdə inkişafı baxımından xüsusi əhəmiyyətlidir. Böyük xeyriyyəçi Zeynalabdin Tağıyevin dediyi kimi, bir oğlana təhsil verməklə təhsilli bir insan, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanmış oluruq. Qızlarımızın cəmiyyətdə mövqe tutmasında rolu olmuş, cəmiyyətimizin təhsil və maarifçilik tarixində dönüş nöqtəsi olan Qızlar məktəbi illər keçsə də xatırlanaraq nəsildən-nəslə əvəzsiz nümunə kimi yad ediləcəkdir.

Hacı Zeynalabdin Tağıyev: öz dövrünün aynasında / elmi red. N. Gözəlova. - Bakı : Pergament, 2020. - 216 s.

Kitab məşhur mesenat, maarifpərvər Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin tariximizin 1920-ci ilə qədərki dövründə apardığı abadlıq işləri, incəsənət və elm qarşısındakı xidmətləri, şəxsi vəsaiti ilə ən görkəmli ziyalılarımıza təhsil verdirməsi hamımıza məlumdur. Lakin təəssüf ki, bu görkəmli şəxsiyyətin həyatı, mütərəqqi fəaliyyəti hələ də öz layiqli qiymətini almayıb. Təqdim olunan kitab hələ yüz il

bundan əvvəl Bakı neftindən gələn pulların qeyri-neft sektoruna yönəldilməsinin zəruriliyini dərk etmiş və bu işi həyata keçirən Hacını millətə tanıtmaq istiqamətində atılmış ilk ciddi adımlardan biridir. Kitaba N.Nərimanovun böyük maarifçi haqqında yazdığı əsər, A. Şaiqin qardaşı Axund Yusif Talıbzadə tərəfindən yazıldığı ehtimal olunan kitabın mətni, həmçinin əsrin əvvəllərində nəşr olunmuş "Himəm ər-rical" ("Kişilərin himməti") kitabından H.Z.Tağıyevin gördüyü işləri əks etdirən bir sıra tarixi sənədlər, ona ithaf olunmuş şeirlər və ona gələn məktublar daxil edilmişdir

**Kitab icmalı:**
Kitab icmalı kitabxanada oxucuların yeni və ya maraqlı kitablarla tanış edilməsi, həmin kitabların məzmunu, mövzusu və əhəmiyyəti haqqında qısa, anlaşıqlı məlumat verilməsi məqsədilə keçirilən kitabxana tədbiridir. Kitabların icmalı kitabxana fəaliyyətində istifadə olunan təbliğat formalarından biri olub Azərbaycan kitabxanalarında ayrıca fəaliyyət istiqaməti kimi tətbiq olunur. Kitab icmallarının əsas məqsədi oxucuları kitabın məzmunu ilə tanış etmək, onlarda kitaba və mütaliəyə maraq yaratmaq, onlara müəllif və əsər haqqında məlumat vermək, kitabın əsas ideyasını və mövzusunu izah etmək, oxucunun yaşına və marağına uyğun kitab seçə bilməsinə kömək etmək, oxucuda mütaliə mədəniyyətini inkişaf etdirməkdir. Kitab icmalında kitabın adı, müəllifi, nəşri, janrı və mövzusu haqqında qısa məlumat verilir, kitabın əsas məzmunu qısa şəkildə izah edilir, əsas fikir ön plana çəkilir.

Mehriban Əliyeva = Mehriban Aliyeva = Мехрибан Алиева / "Azərbaycanım" jurnalı; tərt.-müəl.: E. Nəsirli, F. Nağıyev; ing. dilinə tərc. K. Əhmədqızı;.- Bakı: Ensiklopediya Nəşriyyatı, 2020.- 640 s.- Azərbaycan, ingilis və rus dillərində.




"Mehriban Əliyeva – Azərbaycan qadınının müasir nümunəsi" mövzusu ətrafında kitab icmalını təşkil edərkən oxuculara Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın fəaliyyəti, xeyriyyəçilik təşəbbüsləri, mədəniyyətə, təhsilə və humanitar sahələrə verdiyi töhfələr haqqında oxuculara məlumat verilir. Mehriban Əliyevaya həsr olunmuş kitab və nəşrlər Azərbaycan tarixində və müasir ictimai həyatında tanınmış qadın şəxsiyyətlərindən birinin fəaliyyətini oxuculara çatdırmaq baxımından əhəmiyyətlidir. Bu nəşrlərdə onun ictimai fəaliyyəti, Azərbaycan mədəniyyətinin və milli-mənəvi dəyərlərin təbliği istiqamətində gördüyü işlər geniş şəkildə işıqlandırılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfri Mehriban Əliyevaya həsr olunan

kitabda Azərbaycanın birinci xanımının ali bəşəri dəyərlərə əsaslanan, Azərbaycanın milli maraqlarını rəhbər tutan zəngin fəaliyyətindən bəhs olunur, ümumilikdə, Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini daha yaxşı anlamaq üçün bir-birilə sistemli şəkildə əlaqəli olan kompleks məsələlərə toxunulur. Kitabda həmçinin Mehriban Əliyevanın xeyriyyəçilik, xalqlar və mədəniyyətlərarası əlaqələrin inkişafına verdiyi əvəzsiz töhfələrin xarici ölkələr və təşkilatlar tərəfindən də yüksək qiymətləndirilməsi - ölkənin birinci xanımının iştirak etdiyi tədbirlər, çıxışlar, görüşlər, müsahibələr fonunda rəngli fotoşəkillər ilə birgə yer alıb.

Mehriban Əliyeva qadın nümunəsi kimi kitab icmalında Azərbaycan cəmiyyətində xeyriyyəçilik, təhsil, mədəniyyət, səhiyyə və humanitar fəaliyyəti istiqamətlərində təqdim oluna bilər.

"Mehriban Əliyeva – Azərbaycan qadınının nümunəsi" mövzusunda əsas xeyirxahlıq və humanizm – ehtiyacı olan insanlara, uşaqlara və ailələrə dəstək təşəbbüsləri. Təhsilə diqqət – məktəblərin, təhsil müəssisələrinin və uşaqlar üçün layihələrin dəstəklənməsi. Mədəniyyətə qayğı – Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin və milli irsin təbliğinə töhfələr.

Milli-mənəvi dəyərlərə bağlılıq – Azərbaycan qadınının ailəyə, milli dəyərlərə və cəmiyyətə bağlılığının nümunəsi kimi təqdim edilməsi. Qadınların cəmiyyətdə rolu – qadınların ictimai, mədəni və sosial fəaliyyətlərdə fəal iştirakına diqqət. Ailə və ictimai fəaliyyətin vəhdəti – ailə dəyərləri ilə ictimai fəaliyyəti bir arada aparan qadın obrazı. Kitabxana tədbiri üçün mövzunu "Mehriban Əliyeva – xeyirxahlıq və mərhəmət nümunəsi", "Mehriban Əliyeva – Azərbaycan qadınının parlaq siması" və ya "Mehriban Əliyeva – qadın, ana, xeyriyyəçi" başlığı ilə də təqdim etmək olar. Ümumiyyyətlə Mehriban Əliyeva haqqında yazılmış kitablar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyət göstərən görkəmli dövlət və ictimai xadimin həyat və fəaliyyətinə işıq salır. Bu nəşrlərdə Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyəti ilə yanaşı, elmə, təhsilə, mədəniyyətə, səhiyyəyə və milli-mədəni irsin qorunmasına göstərdiyi diqqət geniş şəkildə təqdim olunur. Kitablarda onun rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən sosial və humanitar layihələr, Azərbaycanın zəngin mədəni irsinin dünyada tanıdılması istiqamətində görülən işlər haqqında məlumatlar yer alır.

Mehriban Əliyevanın fəaliyyətinin mühüm istiqamətlərindən biri Azərbaycan mədəniyyətinin və milli dəyərlərinin qorunmasıdır. Onun təşəbbüsü ilə müxtəlif tarixi abidələrin bərpası, mədəni irs nümunələrinin beynəlxalq səviyyədə tanıdılması və Azərbaycan musiqisinin, muğamının, xalçaçılıq sənətinin təbliği istiqamətində mühüm layihələr həyata keçirilmişdir.

Kitablarda xeyriyyəçilik və sosial layihələr də xüsusi yer tutur. Uşaqların, gənclərin, aztəminatlı ailələrin və xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinə yönəlmiş layihələr Mehriban Əliyevanın ictimai fəaliyyətinin humanist mahiyyətini göstərir. Bu əsərləri oxuduqca Mehriban Əliyevanın obrazında müasir Azərbaycan

qadınının fəallığı, vətənpərvərliyi, humanizmi və milli dəyərlərə bağlılığı əks olunur. Onun fəaliyyəti Azərbaycan qadınının cəmiyyətdəki rolunun və imkanlarının genişlənməsinin nümunələrindən biri kimi təqdim edilir. Mehriban Əliyeva haqqında kitablar oxuculara onun çoxşaxəli fəaliyyəti barədə məlumat verməklə yanaşı, Azərbaycan mədəniyyətinin, tarixinin və milli dəyərlərinin təbliğinin əhəmiyyətini də aşılayır. Bu nəşrlər xüsusilə gənc oxucular üçün dövlətçilik, vətənpərvərlik, xeyirxahlıq və ictimai məsuliyyət mövzularında maraqlı mənbə ola bilər. Kitab icmalı zamanı Mehriban Əliyeva haqqında nəşrlərdən ibarət *"Mehriban Əliyeva – Azərbaycan qadınının müasir nümunəsi"* adlı kitab sərgisi təşkil etmək, oxuculara kitablar haqqında qısa məlumat vermək və mövzu üzrə müzakirə keçirmək məqsədəuyğundur.

Kitabxana tədbiri üçün mövzunu "Mehriban Əliyeva – xeyirxahlıq və mərhəmət nümunəsi", "Mehriban Əliyeva – Azərbaycan qadınının parlaq siması" və ya "Mehriban Əliyeva – qadın, ana, xeyriyyəçi" başlığı ilə də təqdim etmək olar.

**file:///C:/Users/laman.muxtarova/Downloads/Tarixe_adini_yazan_qadinlar_I_cild.pdf**

**file:///C:/Users/laman.muxtarova/Downloads/Mehriban_Eliyeva_tereqqi_ve_yukselish_yollari_ile_I_cild.pdf**

### Qız uşaqları və onların hüquqları:

Uşaqların öz hüquqlarını bilməsi, ictimai həyatda iştirakçılığının artırılması aktual məsələlərdəndir. Bu baxımdan BMT-nin Uşaq Hüquqları Konvensiyası hər bir uşağın hüquqlarını qoruyan mühüm beynəlxalq sənəddir. Konvensiyanın 2-ci maddəsinə əsasən, uşaqların hüquqları cinsindən asılı olmayaraq bərabər şəkildə təmin edilməlidir. Bu o deməkdir ki, qız uşaqları da oğlan uşaqları kimi təhsil almaq, sağlamlığını qorumaq, təhlükəsiz şəraitdə yaşamaq, öz fikrini ifadə etmək, istirahət etmək və inkişaf etmək hüququna malikdirlər. Sənədə əsasən qız uşaqlarının təhsil almasına mane olmaq, onları zorakılığa və istismara məruz qoymaq, cinsinə görə ayrı-seçkilik etmək uşaq hüquqlarının cəmiyyətdə pozulması deməkdir. Öz arzularına, istedadlarına və bacarıqlarına uyğun gələcəyini qurmaq hüququna malik hər bir qız uşağının səsi cəmiyyətydə  eşidilməli, fikrinə hörmət edilməli və onların təhlükəsizliyi qorunmalıdır. Axı qız uşağı yalnız gələcəyin anası deyil, həm də gələcəyin müəllimi, həkimi, alimi, mühəndisi, yazıçısı, sənətçisi və cəmiyyətin fəal üzvüdür. Qız uşaqlarına verilən hər bir imkan – onların təhsilinə, inkişafına və gələcəyinə qoyulan sərmayədir. BMT-nin Uşaq Hüquqları Konvensiyasında sırf qız uşaqları üçün ayrılmış xüsusi bir maddə yoxdur. Konvensiya bütünlüklə cinsindən asılı olmayaraq hər iki cinsdən olan uşaqları (oğlan və qızları) eyni dərəcədə əhatə edir.Bununla belə, qız uşaqlarının hüquqlarının qorunması sənədin əsas sütunlarını təşkil edən aşağıdakı ümumi maddələrlə birbaşa təmin olunur: Qız Uşaqlarının Hüquqlarını Qoruyan Əsas Maddələr: Maddə 2 (Ayrı-seçkiliyin qadağan edilməsi): Dövlətlər uşağın və ya onun valideynlərinin cinsindən, irqindən və dilindən asılı

olmayaraq hər bir uşağın hüquqlarını təmin etməlidir. Bu maddə qız uşaqlarına oğlanlarla bərabər hüquqlar verir. Maddə 19 (Zorakılıqdan müdafiə): Uşaqların hər növ fiziki, psixoloji və cinsi zorakılıqdan, istismardan və kobud rəftardan qorunmasını tələb edir.Maddə 24 (Səhiyyə və zərərli adətlər): Uşaqların sağlamlıq hüququnu tənzimləyir. Bu maddənin 3-cü bəndi dövlətləri uşaqların sağlamlığına zərər vuran ənənəvi adətlərin (məsələn, erkən nikahlar, bəzi icmalarda qızların zərərli ayinlərə məruz qalması) ləğv edilməsi üçün effektiv tədbirlər görməyə məcbur edir. Maddə 28 və 29 (Təhsil hüququ): Qız uşaqlarının oğlanlarla bərabər şərtlərdə ölkə daxilində ödənişsiz və icbari ibtidai təhsil almasını təmin edir. Maddə 34 qız uşaqlrının istismara cəlb edilməsinin qarşısını qətiyyətlə alır.

***Film nümayişi:***

Qızların cinsi mənsubiyyətinə görə üzləşdikləri bərabərsizliklər barədə məlumatlılığı artırmaq üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən elan edilən Beynəlxalq Qızlar Günü hər il 11 oktyabrda qeyd olunur. Bu xüsusi gün həmçinin qızların sahib olduğu potensialın əhəmiyyətini vurğulamağı hədəfləyən bir gün kimi yadda qalır. Dünya üzrə qızlar təhsil və səhiyyədən tutmuş təhlükəsiz həyat şəraitinə və bərabər imkanlara qədər bir çox  sahələrdə ayrı-seçkilik və bərabərsizliklə üzləşdiyi məlumdur. Beynəlxalq Qız Uşaqları Günü bu problemlərin öhdəsindən gəlmək üçün beynəlxalq səviyyədə məlumatlılığı artırmaq və qızların hüquqlarını müdafiə etmək məqsədi daşıyır, qızlara səlahiyyət verilməsinin cəmiyyətin inkişafı və davamlı gələcəyin qurulması istiqamətində vacib bir addım olduğunu vurğulayır. Bu gün də biz kitabxanada qızların hekayələrini və mübarizələrini danışaraq kinonun maarifləndirmə gücünü vurğulayan qızların həyatına, arzularına və cəsarətinə işıq salan filmlərin nümaişini təşkil edə bilərik. Bu filmləri kitabxanada film nümayişi həftəsində təşkil edə bilərik:Dünya kinosundan olan filmlərdən

Pan Labirinti,

Kiçik Qadınlar

Səkkizinci sinif

Mənim Kiçik Günəşim

Güzgü

Cəsur

Xanımquş

Qırmızı

Gülməli tələ

Gəlin bu filmlərin mövzusu ilə ətraflı tanış olaq:

Milli filmlərimizdən isə Aygün filmi



**Pan Labirinti,** filmin şəkli
Filmdə İspaniyada, faşist rejiminin vəhşiliyi arasında, tənha gənc qız Ofelianın yeganə sığınacağından danışılır. O, xəyallarında təsəlli axtarır, lakin bu vaxt ərzində vəhşilik bütün sərtliyi ilə ətrafında yayılmağa davam edir.



**Kiçik Qadınlar**
Filmdə qəhrəmanlar Meq, Co, Bet və Emi tamamilə fərqli xarakterlərə malik dörd bacıdır və Vətəndaş Müharibəsindən sonrakı Amerikada dolanışıqlarını təmin etmək üçün mübarizə aparırlar. Uşaqlıqdan qadınlığa keçid dövründə müxtəlif çətinliklərlə üzləşirlər və ataları müharibədə döyüşərkən anaları ilə birlikdə yaşamaq üçün mübarizə aparırlar. Bu çətin dövrdə onların ən böyük sərvəti bir-birlərinə dəstək olmaları göstərilir..

**Mənim Kiçik Günəşim:** Film 7 yaşlı Olive Huver "Little Miss Sunshine" gözəllik müsabiqəsinə vəsiqə qazandığını öyrənəndə, tamamilə fərqli şəxsiyyətlərdən ibarət qəribə ailəsi onu ora aparmaq üçün qoşqu ilə getməsini göstərir. Onların yol boyu qarşılaşdıqları macəralara baxmayaraq, Olive-in səyahəti onlara ailə olmağın nə demək olduğunu göstərir.



**Azərbaycan filmlərindən isə**
"Sevil"filmində Sevil obrazı (1929, 1959): Çadrasını atıb azadlığa çıxan, savadlanan və cəmiyyətdə öz yerini tutan Azərbaycan qadınının simvoludur.

"İsmət" (1934): Zavodda işləyən, əmək fəaliyyəti ilə ad qazanan və cəsur Azərbaycan qadınını təmsil edən bir filmdir.



“Arşın mal alan”da Gülçöhrə Ata iradəsinə qarşı çıxaraq öz sevgisi və xoşbəxtliyi uğrunda mübarizə aparan gənc qız obrazı.



Dramatik və xarakterik obrazlardan isə “Ögey ana” filmində Dilarə obrazı analıq duyğusunun, fədakarlığın və təmiz qəlbliliyin ekran işindəki ən gözəl nümunələrindən biridir.

**Ədəbi-bədii gecə:**

*Səhnə qurulur. Səhnədə sakit və zərif musiqi səslənir. Ekranda gül açan çiçəklər, kitab oxuyan qız uşaqları və Azərbaycan təbiətindən görüntülər nümayiş etdirilir.*

**I Aparıcı:** Hörmətli qonaqlar, əziz uşaqlar! Bu gün kitabxanamızda həyatımızın ən zərif, ən saf və ən gözəl varlıqlarından biri olan qız uşaqlarına həsr olunmuş “Qəhrəman qadınlar – tariximizin şərəf səhifələri” adlı ədəbi-bədii gecəyə toplaşmışıq. Qız uşağı – ailənin sevinci, ananın ümidi, atanın fəxri, cəmiyyətin isə gələcəyidir.

**II Aparıcı:** Qız uşaqları gül kimidir. Onların böyüməsi, təhsil alması, arzularına çatması, özlərini təhlükəsiz və dəyərli hiss etməsi hər birimizin məsuliyyətidir. Bu gün biz qız uşaqlarından danışacaq, ədəbiyyatımızda və nağıllarımızda yaşayan cəsur qız qəhrəmanları xatırlayacaq, şeirlər söyləyəcək və musiqi nömrələri təqdim edəcəyik.

**I Aparıcı:** Qız uşağı ailəyə sevinc gətirən, evə istilik və məhəbbət gətirən bir varlıqdır. Bu günün qızları sabahın müəllimləri, həkimləri, alimləri, yazıçıları, rəssamları və müxtəlif peşələrin sahibidirlər.

**II Aparıcı :** Onlara verilən ən böyük hədiyyələrdən biri isə təhsil və seçim imkanlarıdır. Qız uşağı oxumalı, öyrənməli, öz istedadını inkişaf etdirməli və gələcəyini özü qurmaq üçün imkan əldə etməlidir.

*Səhnəyə şagirdlər gəlir:*

**I oxucu: -** Quzum, yavrum! Adın nədir?

**II oxucu: -** Gülbahar.

**I oxucu: -** Peki, sənin anan, baban varmı?
**II oxucu: -** Var.
**I oxucu: -** Nasıl, zənginmidir baban?
**II oxucu:** - Evet, zəngin, bəyzadə...
**I oxucu: -** Öyle ise, geydiyin geyim
neyçin böyle sade?
Yoxmu sənin incilərin, altun bilərziklerin?
Söyle, yavrum! Heç sıxılma...
**II oxucu: -** Var, efendim, var...
Lakin
Müellimem hər gün söylər,
onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
**I oxucu:** Çox doğru söz...
Bu dünyada sənin
ən çox sevdiyin kimdir, quzum,
söylərmisən?
**II oxucu:** Ən çox sevdiyim ilkin
O ALLAH ki, yeri-göyü,
insanları xəlq eylər.
**I oxucu:** - Sonra kimlər?
**II oxucu:** - Sonra ONUN gönderdiyi elçilər.
**I oxucu:** - Başqa sevdiklərin nasıl, yoxmu?
**II oxucu:** - Var...
- Kimdir onlar?
**I oxucu:** - Anam, babam, müellimem
bir de bütün insanlar...

**I Aparıcı:**Azərbaycanın qəhrəman qadınları tariximizin hər bir dövründə millətin qüruru, cəsarət və fədakarlıq rəmzi olmuşlar. Onlar həm döyüş meydanlarında, həm də elmdə, mədəniyyətdə və xalqın azadlıq mübarizəsində silinməz izlər qoyublar. Bu fəxr ediləsi tariximizin ən parlaq nümayəndələrini bir neçə qrupda xatırlamaq olar:

**II Aparıcı:**Tomris Xatun: Vətən torpağını qorumaq üçün canından keçən, qədim tariximizin ilk böyük qadın sərkərdəsi.

**I Aparıcı:** Məhsəti Gəncəvi və Xurşidbanu Natəvan: Şeirləri və ictimai fəaliyyətləri ilə qadın azadlığının, mədəniyyətin inkişafının öncülləri.

**II Aparıcı:**İkinci Dünya Müharibəsinin Qəhrəmanlarından Leyla Məmmədbəyova - Şərqin ilk qadın təyyarəçisi olaraq yüzlərlə desantçı və pilot yetişdirən cəsur xanım.

**I Aparıcı:** Ziba Qəniyeva - Müharibədə böyük şücaət göstərmiş ilk azərbaycanlı qadın snayperçi.

Aliyə Rüstəmbəyova - Ön cəbhədə həkim kimi minlərlə yaralının həyatını xilas edən fədakar tibb işçisi.
**II Aparıcı:** Müasir Dövr və Qarabağ Müharibələrində iştirak etmiş Gültəkin Əsgərova - Birinci Qarabağ Müharibəsində yaralıları döyüş meydanından çıxaran və şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı, Nigar Həmidova və Salatın Əsgərova - Millətin səsini dünyaya duyurarkən canından keçən şəhid jurnalist və fədakar qadınlarımız.
**I Aparıcı:** Elm və irfan fədaillərimiz olan maarifçi qadınlar, şairə Xurşidbanu Natəvan və ilk opera bəstələyən qadın Şəfiqə Axundova
Azərbaycan qadını həm fədakar ana, lazım gəldikdə Vətən müdafiəsinə hazır olan qüdrətli bir qəhrəmandır. Onların xatirəsi xalqımızın qəlbində hər zaman əbədi yaşayır.
**II Aparıcı:** Bu qadınlar təkcə öz dövrlərinin qəhrəmanı deyil, həm də gələcək nəsillərə cəsarət, müstəqillik və sarsılmaz iradə dərsi keçən əbədi qürur mənbəyidir.
II hissə
**I Aparıcı:**Belə qadınlardan biridə Milli qəhrəman Hökumə Əliyevadır. Bu gün biz Azərbaycan xalqının yaddaşında qəhrəmanlığı və fədakarlığı ilə əbədi iz qoymuş Hökümə Əliyevanın əziz xatirəsini yad etmək üçün anım tədbirinə toplaşmışıq.

*Fonda musiqi səslənir, Milli Qəhrəman Hökumə Əliyeva*
*haqqında hazırlanmış slayd nümaiş edilir.*

Bu günkü tədbirimiz insan həyatının ən çətin anında öz vəzifə borcuna sadiq qalan, insanların həyatını düşünən və son ana qədər öz məsuliyyətini unutmayan Hökümə Əliyevaya həsr olunub:
**II Aparıcı:** Hökümə Əliyevanın ömrü qısa oldu. Lakin onun həyatının son anları Azərbaycan xalqının yaddaşında böyük bir qəhrəmanlıq nümunəsinə çevrildi. O, yalnız öz peşəsini yerinə yetirən bir təyyarə bələdçisi deyil, həm də insan həyatına və peşə borcuna sədaqətin simvolu kimi xatırlanır.
**I Aparıcı:** 8 avqust 1991-ci ildə Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olan Hökümə Cəlil qızı Əliyeva savadlı və dünyagörüşlü gənc kimi formalaşıb, Bakı Dövlət Universitetinin Hüquq fakültəsində təhsil almışdır.
**II Aparıcı:** Əmək fəaliyyətinə Azərbaycan Hava Yollarında başlayaraq əvvəlcə tərcüməçi kimi çalışmış, daha sonra təyyarə bələdçisi kimi fəaliyyət göstərmişdir. O, öz peşəsini sevən və ona məsuliyyətlə yanaşan bir insan olmuşdur.
**I Aparıcı :** 25 dekabr 2024-cü ildə Bakıdan Qroznıya uçan AZAL sərnişin təyyarəsi Aktau yaxınlığında qəzaya uğrayır. Təyyarədə olan ekipaj üzvləri və sərnişinlər faciə ilə üzləşirlər.
**II Aparıcı :** Belə ağır və fövqəladə vəziyyətdə Hökümə Əliyeva öz peşə borcuna sadiq qaldı. O, son ana qədər sərnişinlərin yanında oldu. Onun adı bu gün Azərbaycan aviasiyasının tarixində fədakarlıq və qəhrəmanlıq rəmzi kimi çəkilir. Gəlin şagirdlərin ifasında hazırlanmış səhnəciklə qəhrəmanımızı yada salaq:

***I şagird:***
Bu gün bir ad çəkirik –
Hökümə!
Bu ad bizim üçün
Qəhrəmanlıq deməkdir.

***II şagird:***
Bir ömür yaşadı,
Amma elə iz qoydu ki,
Adı illər keçsə də
Unudulmayacaq.
***III şagird:***
Göylərdə uçan bir qadın,
Ürəyində Vətən sevgisi.
İnsanlara yardım etmək
Onun ən böyük borcu idi.

***IV şagird:***
Hökümə, bu adın
Qəlbimizdə yaşayacaq.
Sənin qəhrəmanlığın
Nəsillərə örnək olacaq.
*Səhnədə təyyarə salonunu xatırladan sadə dekorasiya. Bir neçə şagird sərnişin rolunda əyləşir.*

**Sərnişin:** – Mən çox qorxuram...

**Hökümə obrazı:** – Sakit olun. Yanınızdayıq. Əlimizdən gələn hər şeyi edəcəyik.

**Sərnişin:** – Hər şey yaxşı olacaq?

**Hökümə:** – Sakit olun. Ümidinizi itirməyin.

**I Aparıcı:** Bəzən insanın həqiqi siması ən çətin anlarda üzə çıxır. Hökümə Əliyevanın son uçuşu onun üçün həyatının son səfəri oldu. Lakin bu səfər onun adını xalqın yaddaşında əbədi yaşatdı.
**II Aparıcı:** Hökümə Əliyevanın göstərdiyi fədakarlıq dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. O, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü.
**I Aparıcı:** Bu yüksək ad Hökümə Əliyevanın şəxsində Azərbaycan qadınının cəsarətinə, fədakarlığına və insan həyatına verdiyi dəyərə ehtiramın ifadəsidir.

Azərbaycan tarixində qəhrəman qadınlarımız çoxdur. Tomris, Nüşabə, Burla xatun, Banuçiçək kimi tarixi və ədəbi qadın obrazlarından başlayaraq Salatın Əsgərova, Gültəkin Əsgərova və digər qəhrəman qadınlarımızadək Azərbaycan qadını hər zaman cəsarəti və mərdliyi ilə seçilib. Hökümə Əliyeva da bu şərəfli sıranın müasir dövrdəki nümayəndələrindən biridir.

## Ədəbiyyat siyahısı:

### Kitablarda


1. Aida Nəsir qızı İmanquliyeva : Aida Nasir Imankuliyeva : Biblioqrafiya / Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxana. - Bakı: Elm, 2010. - 248 s.

2. Babayeva H.Ağabacı Rzayeva ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Aspoliqraf, 2013. - 104 s.

3. Cabbarov F. H. Z. A. Tağıyevin qız məktəbinin tarixindən = Из истории женского училища Г. З. А. Тагиева; Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi. - Bakı : Ziya, 2011. - 392 s.: s. 368 - 390

4. Cavid hikməti : Seçmə aforizmlər. - Bakı : Elm, 2008. - 147 s.

5. Əmircanova Q. Gözəllik və kamillik ilahəsi. - Bakı : Avrora, 2008. - 128 s.

6. Əroğul Ə. Aşıq Pəri : həyatı, mühiti və sənəti. - Bakı : Şərq-Qərb, 2014. - 200 s.

7. Hüseynov R. Məhsəti Gəncəvi: portret-oçerk. - Bakı : Şərq-Qərb, 2013. - 80 s

8. Paşayeva Q. Tarixə adını yazan qadınlar : 3 cilddə 1-ci cild. - Bakı : Ozan, 2019. - 440 s.

9. Paşayeva Q. Tarixə adını yazan qadınlar : 3 cilddə . 2-ci cild. - Bakı : Ozan, 2019. - 464 s.

10. Paşayeva Q. Tarixə adını yazan qadınlar : 3 cilddə.3-cü cild. - Bakı : Ozan, 2019. - 444 s.

11. Maral Rəhmanzadə = Painting&Graphics : Rəngkarlıq və qrafika. – Bakı:Şərq-Qərb, 2011. - 240 s.

12. Reyhan T. İzzət Seyidova (1910-1973), Bədurə Əfqanlı (1912-2002) : rəngkarlıq, qrafika, teatr geyimi.- Bakı : Şərq-Qərb, 2013. - 104 s.

13. Tarixini yazan qadın = Woman writing her history = Женщина, сотворившая

своею историю . - Bakı : Nurlan, 2004. - 159 s.

14. Zivər M.(1902-1980), Həyat A. (1912-2007), Elmira H. (1933-1995) heykəltaraşlıq - Bakı : Şərq-Qərb, 2013. - 104 s.

**Dovri mətbuatda**

1. BayramovaY. Hər qız bir ümidddir! // Yeni Azərbaycan. - 2025. - 11 oktyabr. - № 184. -S. 8.

2.Bayramova Y. Qız övladı yük deyil!: Beynəlxalq Qızlar Günüdür... // Yeni Azərbaycan. -2024. - 11 oktyabr. - № 187. - S. 8.

3.Eldarqızı N.Gələcəyi bərabər quraq: 11 oktyabr Beynəlxalq Qızlar // Respublika. - 2024. - 11 oktyabr. - № 223. - S. 12.

4.Mehralı L.Qız uşaqları gününü qeyd edirik, amma... // Səs. - 2024. - 11 oktyabr. - № 187. - S. 12.

5.Sadıqlı F.Qızlar, dünyanın sözü sizədir! : 11 Oktyabr Beynəlxalq Qız Övladları Günüdür // Azərbaycan : qəzet. - 2024. - 11 oktyabr. - № 223. - S. 11.